PAŞA Bank 2018-ci ilin yanvar ayında 11 faiz olan korporativ kreditlər üzrə bazar payını, 2020-ci ilin dekabr ayında 14.9% faiz artırmaqla 25.9%-ə çatdırmış və beləliklə bazarda birinci korporativ bank adını qazanmışdır. Bununla yanaşı, PAŞA Bank depozit və aktivlər bazarının 17.2% faizinə sahib olmaqla bazarda özəl banklar arasında birincidir. Qazandığımız likvidlik, iqtisadi zərbələrə davamlı olmaq imkanı və parlaq gələcəyə inamla addımlamaq imkanı yaradır.

PAŞA Bank 2021-2023-cü illər strategiyasında bir çox sahələr üzrə Azərbaycanda ən yaxşı bank olmağı qarşıya məqsəd qoymuşdur. Strateji Yol xəritəsinə uyğun olaraq qısa müddət ərzində bizim əsas məqsədlərimizdən biri kommersiya effektivliyini artırmaq və bazara innovativ məhsullar çıxarmaq, həmçinin bazarda yeni seqmentlər, habelə, KOS segmenti üzrə kredit portfelinini böyüdərək bazar payına nail olmaq əsas hədəfimizdir. KOS seqmentində aparıcı banka çevrilmək üçün 2021-2023-cü illərdə məhsul xəttini inkişaf etdirmək və genişləndirməyi planlaşdırırıq. Unikal münasibətlərin idarəolunması modeli və təşəbbüslərin icrası ilə müştərilərə əsaslı dəstək göstərilməsi və müştərilərin maraqlarına xidmət etmək, müştəriləri onların məhsul və xidmət ehtiyaclarına uyğun məsləhət xidmətləri ilə təmin etmək PAŞA Bankın əsas strateji mövqeyi olaraq 2021-2023-cü illərdə də davam etdiriləcəkdir.

PAŞA Bankda 2021-2023-cü illər strategiyasının icrası nəticəsində bir çox innovativ və rəqəmsal kanal və məhsulların təqdim edilməsi ilə əməliyyatların 95% -i internet-bank və digər rəqəmsal kanallardan keçirilməsinə nail olmağı hədəfləyir.

PAŞA Bank Azərbaycanda ən yaxşı işçi təcrübəsi yaratmaq və ən yaxşı iş yeri olmaqla bir işəgötürən kimi bazar mövqeyini qorumağı qarşıya məqsəd qoymuşdur. Biz həmçinin dəyərli əməkdaşlarımızın qabiliyyətlərini üzə çıxarmaq və tələblərə uyğun inkişaf etdirmək üçün yüksək səviyyəli bilik və bacarıqların artırılması proqramlarını da həyata keçirməyə davam edəcəyik.

Bu dövrdə PAŞA Bank öz Korporativ və kommersiya seqmentində, olan müştəriləri, habelə, müştəriləri üçün innovativ məhsul və xidmətlərin təqdim edilməsi üçün ən mütərəqqi və öncül praktikaların tətbiqinə diqqət yetirəcəkdir və müştərilərin bankçılıq təcrübələrini daha da yaxşılaşdıracaq yeni kredit və qeyri kredit məhsulları təqdim edəcəkdir. Bankın 2021-2023-cü illərə dair İnkişaf strategiyasına əsasən Bank yeni sənayeləri və seqmentləri, məhsul və xidmətlərin rəqəmsallaşdırılmasını və yeni onlayn kanalların təqdim edilməsi ilə yanaşı həmçinin data idarəedilməsi və qabaqcıl analitik qabiliyyətlərin inkişaf etdirilməsini, kiber təhlükəsizlikdə və dələduzluqla mübarizədə mükəmməlliyə nail olmağı hədəfləyir.

## Strateji Baxış

PAŞA Bankın uzun müddətli prioriteti yüksək etik standartlara riayət edən, keyfiyyətli xidmətlər göstərən, mükəmməl işgüzar nüfuza və güclü maliyyə potensialına malik aparıcı Azərbaycan bankı olmaqdır.

PAŞA Bankın strateji istiqaməti aşağıdakı kimidir:




## Missiya və Hədəflərimiz

PAŞA Bankın missiyası tərəfdaşlara xidmət göstərməkdir:



**Strateji hədəflər:**

- Kapitalın və təşkilat effektivliyinin möhkəmləndirilməsi;
- Əsas bacarıqların gücləndirilməsi;
- Bazar mövqeyinin qorunub saxlanması;
- Müştəri xidmətlərinin dəstəklənməsi;
- Data İdarəedilməsi və qabaqcıl analitik qabiliyyətlərin inkişaf etdirilməsi.
- Kiber Təhlükəsizlikdə mükəmməlliyin əldə edilməsi;